**«Tədris Mərkəzi elmin inkişafına mühüm töhfədir»**

Azərbaycan Respublikası Prezidenti yanında Elm Fondunun aparıcı mütəxəssisi Abbas Əsgərov:

«Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyəti vergi əməkdaşlarının peşə hazırlıqlarının yüksəldilməsi məqsədilə yaradılmış şərait digər dövlət qurumları üçün də müsbət sayıla ola bilər. Tədris Mərkəzi ilə tanışlıq zamanı bu təhsil müəssisəsinin müasir idarəçilik əsasında işlədiyini gördük.

Doğrusu, Mərkəzin bu cür müasir binaya və təchizata malik olduğunu təsəvvür etmirdik. Burada tədrisin informasiya texnologiyalarının ən son nailiyyətləri əsasında qurulması alqışlanmalıdır. Mərkəzdə həm dinləyicilər, həm də müəllimlər üçün normal iş şəraiti yaradılmışdır. Belə mərkəzlərin mövcudluğu, ümumilikdə, elmimizin inkişafına mühüm töhfə olmaqla yanaşı, Vergilər Nazirliyinin müasir iş üslubunun, innovativ yeniliklərə meyilliliyinin nəticəsidir».

Samir MUSTAFAYEV